# SEVİNDİK NƏSİBOĞLU - “ÇIXIŞ YOLU”NDA,

## yaxud “kaş yerinə mən olaydım”, ey Vətən!



Şair-publisist Sevindik Nəsiboğlunun lap bu günlərdə yazdığı - çox təbii hisslərlə qələmə aldığı Qarabağ yanğılı “Kaş yerinə mən olaydım” adlı şeiri var. Elə şeirin adını oxuyan kimi oxucunun özündə ünvan axtarışı baş alıb gedir və tərəddüdsüz olaraq oxucu anlayır ki, S.Nəsiboğlu özünü Vətənin yerinə qoyur, Vətəni özünə qovuşdurur. Və bununla sanki Azərbaycan savaşında olanların hamısına manifest olaraq bildirir ki, özünüzü Vətənin yerinə qoyun. Onda Vətənin ağrısını özünüzdə görərsiniz, Vətənin yanğısını canınızda duyarsınız. Beləliklə, əgər biz həmin şeirin özünü təzədən ruhumuzdan, varlığımızdan gələn bir səslə elə beləcə də adlandırardıq: “Kaş yerinə mən olaydım, ey Vətən!”. Bu, bir uşaq dünyasının manifesti deyil. Bu, Azərbaycanın gələcək sahibi olacaq yeni nəslin manifestidir. O, hələ bərkiməmiş, hələ kövrək olan, hələ varlığında taleyin açacağı nə qədər yaraları yaşamamış bir uşağın yox, uşaq dünyasında duya bilmək imkanında olan vətəndaşın manifestidir.

S.Nəsiboğlunun yaradıcılığında güc, enerji mənbəyi olacaq saf, dumduru uşaq dünyasından gələn səslər var və o səslərin ümumi harmoniyasında biz uşaq ümumbəşəriliyi ilə Vətənə, milli hisslərə bağlı olan duyğuları da hiss edirik, anlayırıq.

* * *

Dünən - 08 iyul tarixində gənc şair-publisist Sevindik Nəsiboğlunun “Lider” televiziya kanalının “Çıxış yolu” verilişində böyük Azərbaycan auditoriyası ilə görüşü oldu. Doğrudur, biz Sevindik Nəsiboğlunu gənc kimi təqdim edirik. Ancaq onun on iki yaşı olduğunu diqqətə çəksək, heç yeniyetmə olduğunu da demək bir o qədər əsaslı deyil. Əgər yeniyetməlik yaşı hələ iki ildən sonra hesablanırsa ,onda biz Sevindik Nəsiboğlunun Azərbaycan mənəvi mühitindəki kimliyini fenomenallıq baxımından etiraf etməliyik.

“Lider” televiziya kanalının Sevindik Nəsiboğlunu ictimai diqqətə çəkməsi əlbəttə təqdir olunmalıdır. Çünki, dünya çapında tarixən hələ uşaq yaşlarında görünən fenomenlər az olmasa da, çox da olmayıb. Motsartın, Evarist Qaluanın (tale baxımından eyni olmasa da) və digərlərinin möcüzələri yada düşür. Və böyük Sabirin “Tutdum orucumu irəmazanda, qaldı iki gözüm qazanda” misraları doqquz yaşlı uşağın mənəvi mühitindəki harmoniyanın qeyri-adi gücündən xəbər verir. Böyük sənətkarımız Zəlimxan Yaqub danışırdı ki, hələ on iki yaşım olanda radiodan eşitdiyim bir mahnının təsiri altında ilk misralarımı şifahi şəkildə demişdim və hər kəsin dilində əzbər olmuşdu: “Evimizin yanı arpa, atlar gəlib qırpa-qırpa”. Sonra da izah edirdi ki, elə bu iki misra ilə nəsil, tayfa məni şair kimi tanıdı. Demək, uşaq müşahidəsi evdən yuxarıda arpa zəmisi atların zəmiyə girməyi, zəminin sünbülləmək vaxtı... bütün bunların hamısı o iki misranın içərisində cəmlənib. Demək uşaq fəhmi ilə müşahidə var. Uşaq fəhmi ilə həyata baxış var. Və bu mənada Sevindik Nəsiboğlunun “Çıxış yolu”nda görünməsi təsadüfi deyil.

Aparıcı Nuranə Nur qonaqları təqdim edərkən Sevindik Nəsiboğlunun yaradıcılığına yol açan “Kredo” qəzetinin təmsilçisi kimi mənim adımı çəkdi, sonra “Afea.az” saytının baş redaktoru Vüsalə xanım, “Çıxış yolu”nda xeyriyyəçi missiyası daşıyan Yeganə Telmanqızı, Azərbaycan diplomatik mərkəzinin rəhbəri Fərid Məmmədov haqqında da məlumat verdi. Veriliş boyu məlum oldu ki, dəvət olunan qonaqların hər biri Sevindik Nəsiboğlunun istedadı və yaradıcılıq yolu haqqında məlumatlıdır. Burada “Ümid” xeyriyyə fondunun rəhbəri Raya Məlikovanın adından imkansız insanlara maddi yardımların təqdim olunması da təqdirə layiq idi. Bu göstərir ki, bizim xalqımızın ruhunda, varlığında yüksək humanizm keyfiyyətləri kifayət qədər davamlıdır, güclüdür. Bütün bunlar öz yerində, amma əsas odur ki, Azərbaycan cəmiyyəti ən çətin günlərdə belə - pandemiyanın dünya üzrə tüğyan zamanında sözə, mənəvi dəyərə qiymət verməyi unutmur. AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Dövlət Universitetinin dosenti, şair-ədəbiyyatşünas Xanəli Kərimli, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Tahir Kərimov, filologiya elmləri doktoru Asif Rüstəmli... Sevindik Nəsiboğlunun yaradıcılığı haqqında canlı yayıma qoşularaq görüntülü rəylər söylədilər. Akademik İsmayıl Hacıyev qeyd etdi ki, Sevindik Nəsiboğlunun “Ulu Naxçıvanım” kitabı şair-publisist Sevindik Nəsiboğlunun təkcə ədəbi-publisistik düşüncələri deyil, həm də tədqiqat əsəridir. Bu əsərlə o, əslində gələcək yaradıcılıq yolunu tam dərk eləmiş müəllif kimi görür. Akademik həm də onu dedi ki, belə uşaqlar xalqımızın milli sərvəti kimi “Qırmızı kitab”a daxil edilməlidir, və onlar dövlət qayğısı ilə əhatə olunmalıdır.




Akademikin bu sözləri yerinə düşür. Həqiqətən indi ölkəmizdə istedadlı, fenomenal uşaqların axtarışı aparılır və onlar xüsusi qayğı ilə əhatə olunurlar. Akademik Sevindik Nəsiboğlunun yaradıcılığının püxtələşməsində və arenaya çıxmasında “Kredo” qəzetinin rolunu da yüksək qiymətləndirdi. Professor Tahir Kərimovun, şair ədəbiyyatşünas Xanəli Kərimlinin, professor Asif Rüstəmlinin çıxışlarında da Sevindik Nəsiboğlunun istedadına işıq salındı. Onun yaradıcılıq yolunun ədəbi mühitə çatdırılmasında “Kredo” qəzetinin xidmətləri yetərincə dəyərləndirildi.

Tahir Kərimov, professor: - Sevindik Nəsiboğlu ilə mənim ilk tanışlığım hələ iki il əvvəl olub. Milli Kitabxanada görkəmli alimlərdən birinin yeni kitablarının təqdimat mərasiminə qatılmışdı. Tədbir zamanı mənə dedilər ki, burada S.Nəsiboğlu adında bir uşaq da iştirak edir. Ona söz verməyimi istədilər. Mən də S.Nəsiboğluna söz verdim. Onun danışığı, yerli-yerində məntiqi, xüsusilə, C.Cabbarlı haqqındakı tədqiqata (söhbəti professor Asif Rüstəmlinin kitablarının tədqimatından gedir - Ə.X.) elmi münasibəti məni təəccübqarışıq heyrətə gətirdi. Milli Kitabxanada belə bir ruhlu, duyğulu uşağın çıxışı diqqətimi çəkdi. Tədbirdən sonra onunla ayrıca söhbət etdim. Məlum oldu ki, artıq iki şeir kitabının müəllifidir. Və onun “Hərdən uçmaq istəyirəm” adlı kitabının təqdimatını da keçirməyi planlaşdırdıq. Əlbəttə, bu da Sevindik Nəsiboğlunun ədəbi həyatında yeni uğur mərhələsi idi. Bundan sonra o, demək olar ki, bizim əsas tədbirlərimizin iştirakçısı oldu. Eyni zamanda Milli Kitabxananın bütün işlərinin təbliğatçısı kimi çıxış etdi. Onun saytlarda, ayrı-ayrı mətbuat orqanlarında Milli Kitabxana ilə bağlı yazıları ardıcıl olaraq işıq üzü gördü.

Burada professorun çıxışından olan mahiyyət olduğu kimi saxlanıb. Ancaq mətn improvizəsi təbii qəbul olunmalıdır.

Yerinə düşür ki, burada qeyd edək Sevindik Nəsiboğlu “Kredo” qəzetinin yüksək ədəbi elitar redaksiya heyətində təmsil olunur. Bu, əlbəttə, xalqımızın gələcək nəslə olan inamının təcəssümüdür.

Tədbirin iştirakçısı kimi “Çıxış yolu”nda bu sətrlərin müəllifi olaraq məndə Sevindik Nəsiboğlunun yaradıcılıq yolu haqqında əhatəli danışmağa çalışdım. Çünki onun “Dünyamsan Azərbaycan”, “Hərdən uçmaq istəyirəm” adlı kitablarının təqdimat mərasimlərində iştirak eləmişəm, ədəbi ictimaiyyətin nümayəndələri ilə fikirlərimi bölüşmüşəm. Xüsusilə, Sevindik Nəsiboğlunun bu kitablarında görünən gözə dəyən qeyri-adi obrazlarına münasibət bildirmişəm. Onun “Savalan dağı”, “Şuşa həsrəti”, “Hüseyn Cavid”, “İblis”, Azərbaycan tarixi ilə bağlı sözünün ilişkili məqamlarına... diqqəti yönəltməyə çalışmışam, göstərmişəm ki, sözün bu çalarlarında Sevindik Nəsiboğlunun qeyri-adi təfəkkürü üzə çıxır. Hətta Sevindik Nəsiboğlunun öz həmyaşıdlarına təsiri haqqında da danışdım və bu yerdə nəvəm Alur Cəbrayılzadənin də adını çəkdim. Qeyd etdim ki, Sevindik indiki yaşında həmyaşıdları arasında məktəb yaratmaq gücündədir. Onun pandemiya günlərində “Evdə qal: vaxtının qədrini bil” layihəsində Azərbaycan üzrə nə qədər uşaq iştirak elədi və o uşaqlardan biri də Alur Cəbrayılzadə idi. Bu məndə qürur hissi doğururdu.

İstedad Vətənin sərvətidir. Bir uşaq öz cəsarətli müdaxiləsi ilə nə qədər istedadı hərəkətə gətirə bilir.

Kifayət qədər vaxtı olan verilişin necə keçdiyi iştirakçıların hər birinə,



o cümlədən mənə də təəcüblü gəldi və Sevindik Nəsiboğlu özü də verlişin tez qurtarmağına təəssüf elədi. Nə üçün təəssüf edirsən? - sorğusuna cavabında isə dedi ki, mən yeni bir şeirimi oxumaq istəyirdim.

Doğrudur, həmin tədbirdə Sevindik özü də şeirlərini oxudu, ekspert Fərid Məmmədov da onun Cavid” poemasından bir fəsli oxudu. Çox maraqla qarşılandı. Ancaq Sevindik Nəsiboğlunun kitablarının redaktoru kimi onun keçirdiyi hissləri, həyəcanları mən yaxşı başa düşürdüm. Verilişdən sonra zəng edən yazıçı filologiya doktoru Elçin Mehrəliyev (“Ulu Naxçıvanım” kitabının rəyçisi), şair, ədəbiyyatşünas Xanəli Kərimli (“Könüllərə yol gəzirəm” kitabının rəyçisi) zənglərində öz təbriklərini bildirməklə bərabər “Çıxış yolu” verilişində Sevindik Nəsiboğlunu daha çox şair kimi görmək istədiklərini və onun öz dilindən şeirlərinin səslənməsinin daha məqbul olmağını dilə gətirdilər.

*(Davamı var)*

***Əli Rza XƏLƏFLİ***